***ALİ MƏCLİSİN İCLASI***

*12 noyabr 2025-ci il. Saat 16.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*

*birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının dördüncü iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 16.00 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Hörmətli həmkarlar, iclasın gündəliyinə aşağıdakı məsələ daxildir:

Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi məsələsinə baxılması.

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 12 noyabr tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilmişdir.

Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edildiyindən o, Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməlidir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifədən azad edilməsi Ali Məclisin həll etdiyi məsələlərə aid edilmişdir.

Hörmətli Ceyhun Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi ilə əlaqədar qərar layihəsi hazırlanmışdır.

Qərar layihəsini diqqətinizə çatdırıram.

“C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

Deputatlardan kim “C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı Komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 16.03 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Hörmətli deputatlar!

Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edir, fəaliyyətində uğurlar arzulayırıq.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!